4. Xeyrullayeva R. "Sergey Raxmaninovun fortepiano əsərlərinin Azərbaycan ifaçılıq məktəbinə təsiri". Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2018.

## ИСПОЛЬЗОВАНИЕ ФОРТЕПИАННЫХ ПРОИЗВИДЕНИЙ СЕРГЕЯ ВАСИЛЬЕВИЧА РАХМАНИНОВА В МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ

***Гаджиева Мехрибан Шовкет кызы***

***Резюме***

Использование фортепианных произведений выдающего русского композитора Сергея Васильевича Рахманинова в учебном процессе общеобразовательных школимеет важную роль вмузыкальном воспитании школьников.

## USE OF PİANO WORKS BY SERGEY VASİLYEVİCH RACHMANİNOFF İN THE MUSİCAL EDUCATİON

***Hajiyeva Mehriban Shovkat***

***Summary***

The well-known Russian composer S.V.Rahmaninov use of piano music in the process of teaching, plays in important role in the development of the music education of the schoolchildren.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının baş müəllimi S.Həsənova***
***"Musiqi fənləri" kafedrasının 11.03.2021-ci il tarixli iclasının 09 saylı protokolu***
***Daxil olduğu tarix 24 aprel 2021-ci il***

**UOT:78.**

# N. A. RİMSKİ-KORSAKOVUN YARADICILIĞININ ƏSAS XÜSUSİYƏTLƏRİ

***Haqverdiyeva Nərgiz Əli qızı***
***Gəncə Dövlət Universiteti***
***nargizhaqverdiyeva.@gmail.com***

**Xülasə:** *Görkəmli rus bəstəkarı Nikolay Andreyeviç Rimski-Korsakov (1844-1908) bəstəkar, dirijor, pedaqoq, nəzəriyyəçi kimi dünya musiqi mədəniyyətində özünəməxsus yer tutur. Məqalədə bəstəkarın yaradıcılığının mərhələləri, janr və mövzu dairəsi, bəstəkarın yaradıcılığının əsas xüsusiyyətləri araşdırılmışdır.*

*N.A.Rimski-Korsakovun yaradıcılıq irsi çox zəngin və rəngarəngdir.Nağıl mövzularına müraciət, opera və simfonik əsərlərində özünü aydın göstərən xalq mahnı elementləri, təbiətin poetik təsviri bəstəkarın üslub xüsusiyyətlərini səciyyələndirən cəhətlərdəndir. Bəstəkar simfonik musiqidə yeni janr-simfonik nağıl janrını yaratmışdır. M.Qlinkanin ənənələrini davam etdirən, bəstəkarın yaradıcılığı çoxşaxəlidir. O, 15 opera, 3 simfoniya, 7 süita, 3 kantata, fortepiano və orkestr üçün konsert, xor əsərləri, 79 romans, xalq mahnılarının işləmələri, 100 rus xalq mahnıları məcmüəsi və s. kimi əsərlər yaratmışdır. N.A.Rimski-Korsakov 40 ilə yaxın (1871-1908) pedaqoji fəaliyyəti dövründə 200-dən artıq bəstəkar, dirijor, musiqişünas yetişdirmişdir.*

*N.A.Rismki-Korsakov milli musiqinin tərəqqisi sahəsindəki xidmətləri və qazandıqları nailiyyətlər rus və Qərbi Avropa musiqisinin inkişafına ciddi təsir göstərmişdir. N.A.Rimski-Korsakovun yaradıcılığı gələcək nəsillər üçün dəyərli xəzinədir.*

**Açar sözlər:** N.A.Rimski-Korsakov, bəstəkar, yaradıcılıq,rus, musiqi, əsər

**Ключевыеслова:** Н.А.Римский-Корсаков, композитор, творчество, русская, музыка, произведение
**Key words:** N.A.Rimski-Korsakov, composer, work, russian, music, composition

Musiqi tarixində XIX əsrin 60-ci illəri rus musiqi mədəniyyətinin böyük ictimai yüksəliş dövrü kimi yadda qalmışdır. Bu illərdə musiqi mədəniyyətinin böyük xadimlərindən ibarət olan bütöv bir bəstəkarlar nəsli meydana gəlir. Görkəmli bəstəkarlar P.İ.Çaykovski, Rubinşteyn qardaşları, A.N.Serov, V.V.Stasov, M.A.Balakirev və rus musiqi mədəniyyətinə "Qüdrətli dəstə" adı ilə daxil olmuş bəstəkarlar qrupu (M.Musorqski (1839-1881), A.Borodin (1833-1887), S.Küi (1835-1918), N.Rimski-Korsakov(1844-1908)) məhz bu dövrdə fəaliyyət göstərmişlər.

Nikolay Andreyeviç Rimski-Korsakov (1844-1908) XIX əsr rus və Avropa musiqi mədəniyyətinin parlaq nümayəndələri sırasında önəmli yer tutur. O, musiqi tarixinə bəstəkar, dirijor, ictimai xadim və pedaqoq kimi daxil olmuşdur. N.A.Rimski-Korsakov 1844-cü ilin mart ayının 6-da(18-də) Novqorod vilayətinin Tixvin şəhərində anadan olmuşdur. O, uşaq yaşlarından musiqiyə və dənizə böyük maraq göstərirdi. Dəniz akademiyasını bitirdikdən sonra, N.A.Rimski-Korsakov üç illik (1862-1865) dünya səyahətinə yollanır və Avropa, Cənubi və Şimali Amerikanın ölkələrinə səfər edərək, dünyanın müxtəlif şəhərlərini görür, maraqlı insanlar, ecazkar dəniz və təbiət haqqında yeni təəssüratlar yığır. Bu zəngin təəssüratlar gələcəkdə N.A.Rimski-Korsakovun yazacağı operalarda və müxtəlif əsərlərdə canlanır və özünü göstərir.

Sənət yolunun ilk addımlarını bəstəkar "Qüdrətli dəstə" dərnəyinin fəal üzvü kimi başlamışdır. "Rus musiqiçilərinin bu kiçik, lakin eyni zamanda qüdrətli dəstəsi necə də yüksək poeziya, hissiyyat, istedad və məharətə malikdir",-görkəmli musiqi tənqidçisi Vladimir Stasovun bu sözləri qrupun adını müəyyənləşdirir – "Qüdrətli dəstə"[2]. Bir musiqiçi kimi, N.A.Rimski-Korsakov "Qüdrətli dəstə" prinsiplərinin təsiri altında formalaşmışdır.Bu prinsiplərdən ən başlıcası –xəlqlilik prinsipi olmuşdur. "Qüdrətli dəstə"nin üzvləri rus xalqının tarixindən, məişətindən, nağıllarından seçdikləri mövzuları musiqi dilinə çevirərək vətənpərvərlik ruhunda monumental musiqi əsərləri yaratmışlar. Onlar zəngin xalq musiqisi xəzinəsinə müraciət etmiş və həm rus, həm də Qafqaz, Orta və Yaxın Asiyada yaşayan millətlərin özünəməxsus melodiya və ritmlərini öz əsərlərində istifadə etmişdir. "Qüdrətli dəstə"də xüsusi yeri olan N.A.Rimski-Korsakovun xəlqlilik prinsipi həmkarlarından bir qədər fərqli idi və burada onun öz mövqeyi var idi. O, öz vəzifəsini qədim xalq rəvayətlərini, nağıl və əfsanələrinin, qədim adət-ənənələrinin musiqidə əks etdirilməsində görürdü.

Bəstəkar müraciət etdiyi janrları ilk növbədə mövzu və obrazlar aləmi baxımında zənginləşdirmişdir. Nağıl mövzuları, eləcə də təbiət obrazları ilə bağlı musiqi N.A.Rimski-Korsakov yaradıcılığında xüsusi yer tutur. Ümumiyyətlə, rəvayət və əfsanələr, yəni epos N.A.Rimski-Korsakovun yaradıcılığına və musiqi təfəkkürünə güclü təsir etmişdir. Təsadüfi deyil ki, musiqi mədəniyyəti tarixində sehrli nağıl ustası kimi tanınan bəstəkarın fitri istedadı və sənətkarlığı ən çox fantastikaləmi və rus xalq nağılları, əfsanələri ilə bağlı mövzuları təcəssüm etdirən əsərlərində özünü biruzə verir. Nağıllardan, mifologiyadan götürülmüş mövzu və obrazları musiqidə əks etdirməklə N.A.Rismki-Korsakov əslində öz xalqının dünya görüşünü ifadə edirdi.

N.A.Rimski-Korsakov başqa xalqların mövzularına böyük maraq göstərmişdir. Bəstəkarın "Serb fantaziyası"(1867), "İspan kapriççiosu"(1887) bunun bariz nümunəsidir. N.A.Rimski-Korsakovun müxtəlif xalqların mövzularını əks etdirən əsərləri içərisində Şərq aləmini və Şərq obrazlarını təcəssüm etdirən nümunələr xüsusi yer tutur. Musiqidə M.Qlinka tərəfindən təsbit edilmiş oriyental ənənələr XIX əsrin ikinci yarısında "Qüdrətli dəstə" bəstəkarlarının yaradıcılığında davam etdirilmişdir. N.A.Rimski-Korsakov bir sıra əsərlərində Şərq musiqi motivlərindən, intonasiyalarından çox məharətlə istifadə edərək, əbədiyaşar

əsərlər yaratmışdır. Bəstəkarın 1888-ci ildə yazdığı "Şəhrizad" simfonik süitası "Min bir gecə" ərəb nağılları motivlərinə əsaslanır. Bu süitanı dinləyən insanın gözü qarşısında mavi dəniz, parlaq günəş, Şərq şəhəri olan Bağdadın obrazı canlanır. "Şəhrizad" simfonik süitası ilə yanaşı, N.A.Rimski-Korsakovun operalarındakı Şərq surətləri ("Qızıl xoruz" operasında Şamaxı Şahzadəsi), romansları içərisində isə Şərq üslubda yazılmış "Şərq romansı"( sözləri A.Kolsovundur) buna misal ola bilər.

N.A.Rimski-Korsakovun musiqi dili rus xalq musiqisindən bəhrələnmişdir. Xüsusən rus xalq musiqisinin qədim nümunələrinə böyük maraq göstərən bəstəkar qədim motivləri dəyişilməz şəkildə istifadə etmiş, həmçinin onların ruhunda öz melodiyalarını yaratmışdır. Bəstəkarın əsərlərində rast gəldiyimiz arxaikləşdirilmiş, tək ölçülü diatonik mövzular ("Qar qız" operasındakı 11/4 ölçüsündə son xor) buna nümunədir.

N.A.Rimski-Korsakov musiqi harmoniyasının koloristik imkanlarını xeyli zənginləşdirmiş və genişləndirmişdir. Bəstəkarın fantastik surətlərin təsvirində istifadə etdiyi lad-harmonik vasitələri, mürəkkəb ladlar - artırılmış lad və "Rimski-Korsakov qamması kimi" tanınan, ton-yarımton səssırasına malik əksidilmiş ladı qeyd etmək olar.

Müxtəlif janrlarda əsərlər yaratmış N.A.Rimski-Korsakov rus operasının, simfonik musiqisinin, romans janrının inkişafında müstəsna xidmətlər göstərmişdir.

N.A.Rimski-Korsakov 15 operanın müəllifidir. Bəstəkarın yaratdığı ilk opera nümunəsi "Pskovlu qız" (1873) - L.Meyin dramı əsasında yazılmış tarixi opera nümunəsidir. Həmçinin "Boyarınya Vera Seloqa" (1898), "Pan Voyevoda" (1904) də bu qəbildən olan operalardır. N.A.Rimski-Korsakov komik operalarında da gözəl nümunələr yaratmışdır. Bunların içərisində N.Qoqolun əsərləri əsasında yazılmış "May gecəsi"(1880) və "Milad ərəfəsi gecəsi"(1894) operalarını qeyd etmək olar. L.Meyin dramı əsasında bəsətəkarın yaratdığı "Çar gəlini" (1899) – lirik-dramatik operadır. N.A.Rimski-Korsakovun ən əhəmiyyətli nailiyyətləri xüsusi ilə onun nağıl operalarında qabarıq nəzərə çarpır. "Qar qız" (1881), "Çar Saltan haqqında nağıl"(1900), "Ölməz Kaşşey" (1902), "Kitej şəhəri haqqında rəvayət" (1904) "Qızıl xoruz" (1907), kimi operalarda fantastik nağıl mövzusu son dərəcə fərqli tərzdə və fərqli vasitələrlə təcəssüm etdirilmişdir. Qeyd etmək lazımdır ki,son operalarda bəstəkar xalqın azadlıq, səadət, gözəllik haqqında arzularını, ədalət, xeyir və yaxşılıq haqqında təsəvvürlərini, həqiqətin təntənəsi, işıqlı qüvvələrin şər üzərində qələbəsi haqqında fikirlərini ön planda verir. "Sadko"(1897) operasını N.A.Rimski-Korsakov özü opera-bılina kimi müəyyən etmişdir.

Operalarında rəngarəng surətlər yaradan N.A.Rimski-Korsakov xalq yaradıcılığına dayaqlanır, bu obrazlarda xalq nağıl və əfsanələrində təcəssümünü tapmış qəhrəmanların səciyyəvi cəhətlərini əks etdirir.

N.A.Rimski-Korsakovun operalarının vokal üslubunu əsas etibarı ilə mahnıvari, melodik üslub kimi müəyyən etmək olar. Rus folklorundan geniş istifadə edən bəstəkar melodiyalarını, hətta reçitativlərini də bu üslubda yaradırdı.Simfonik orkestrin imkanlarına mükəmməl bələd olan N.A.Rimski-Korsakov öz operalarında orkestrdən məharətlə istifadə etmişdir.

N.A Rimski-Korsakov yaradıcılıq yolunun müxtəlif mərhələlərində simfonik əsərlər bəstələmişdir. Bəstəkarın simfonik yaradıcılığında proqramlı əsərlər əsas yer tutur. Onun müəyyən adı olmayan simfonik əsəri də geniş mənada proqramlı əsər hesab edilə bilər. Proqramlılığa və janr simfonizminə meyilli olduğuna görə N.A.Rimski-Korsakov əsas etibarı ilə uvertüra, simfonik lövhə, süita kimi janrlara müraciət etmişdir.

Rus simfonik musiqisində N.A.Rimski-Korsakov yeni janr- simfonik nağıl janrını yaratmışdır. Bəstəkarın "Sadko" (1967) adlı musiqi lövhəsi bu qəbildən ilk nümunədir. Bu əsərdən başlayaraq N.A.Rimski-Korsakovun simfonik yaradıcılığında rəvayət, hekayət xarakterli simfonizm metodu bərqərar olur. Bəstəkarın Şərq mövzusunda yazdığı əsərlərdə, məsələn, "Antar"(1868) adlı simfonik süitada bu metod tədbiq edilmişdir. N.A.Rimski-

Korsakovun proqramlı əsərləri və ümumiyyətlə simfonik yaradıcılığın zirvə nümunəsi-"Şəhrizad" (1888) simfonik süitasıdır.

N.A.Rimski-Korsakov gözəl kamera-vokal nümunələr yaratmışdır. Onun mahnı və romansları şairanəliyi və mükəmməl formaları ilə seçilərək bəstəkarın yüksək bədii zövqə malik olduğunu nümayiş etdirir.N.A.Rimski-Korsakovun romanslarında işıqlı elegiyaya yaxın nümunələr, məhəbbət mövzusunu, təbiəti tərənnüm edən əsərlər, Şərq obrazları ilə bağlı romanslar da vardır. Xalq məişəti ilə bağlı elementlər, yumoristik nümunələr, dərin dramatizmi ilə seçilən romanslar isə demək olar ki, yox dərəcəsindədir.

N.A.Rimski-Korsakovun rus musiqisi tarixindəki rolu ilk növbədə onun fəaliyyətinin genişliyi ilə müəyyən edilir. "Qüdrətli dəstə"nin ənənələrini XX əsrin əvvəllərinədək yaşatmış N.A.Rimski-Korsakov bəstəkarlıqla yanaşı, musiqi təhsili sahəsində böyük rol oynamışdır. Qeyd etmək lazımdır ki, bəstəkarın nəzəri-musiqi bazası və sistemli musiqi təhsili olmamışdır. Buna baxmayaraq, 1871-ci ildə bəstəkarı Peterburq Konservatoriyasının bəstəkarlıq, instrumentovka sinfi üzrə professor və orkestr rəhbəri vəzifələrinə dəvət edirlər. Onun yazdığı "Orkestləşdirmənin əsasları"(1913), "Harmoniya" dərslikləri (1886) bu günə kimi öz əhəmiyyətini itirməmişdir və musiqi tədrisində geniş istifadə olunur. Gözəl ədəbi qələmə malik olan bəstəkar "Mənim musiqi həyatımın salnaməsi" (1909) ("Летопись моей музыкальной жизни") adlı xatirələr kitabının müəllifidir.

N.A.Rimski-Korsakov 40 ilə yaxın (1871-1908) pedaqoji fəaliyyəti dövründə 200-dən artıq bəstəkar, dirijor, musiqişünas yetişdirmişdir. Onlardan rus musiqi mədəniyyətində mühüm yer tutam A.Qlazunovun, A.Lyadovun, A.Arenskinin, İ.Stravinskinin, N.Myaskovskinin, S.Prokofyevin, M.Qnesinin, B.Asafyevin adlarını çəkmək olar.

N.A.Rimski-Korsakov görkəmli rus bəstəkarlarının yaradıcılıq irsinin qorunması üçün böyük işlər görmüşdür. A.Darqomijskinin vəsiyyəti ilə onun "Daş qonaq" operasını məhz N.A.Rimski-Korsakov orkestrləşdirmişdir. Bəstəkar həmçinin A.Qlazunovla birlikdə A.Borodinin "Knyaz İqor" operasını tamamlamış, M.Musorqskinin "Boris Qodunov" operasının yeni redaksiyasını hazırlamış və bütün bu işləri təmənnasız olaraq yerinə yetirməklə öz xalqına, onun musiqi mədəniyyətinə xidmət etdiyini parlaq nümayiş etdirmişdir.

Pedaqoji fəaliyyəti ilə yanaşı N.A.Rimski-Korsakov həmdə folklorşünas kimi fəaliyyət göstərmişdir. Bəstəkar istedadlı həvəskar-müğənni T.Filippovun rus xalq mahnılarını nota köçürür, onları fortepiano və səs üçün işləyərək "100 rus xalq mahnısı" və "40 mahnı" toplularını tərtib etmişdir (1875-1876).

1874-1881- cı illərdə N.A.Rimski-Korsakov M.Balakirevin təşəbbüsü ilə yaradılan (1962) Sankt-Peterburq pulsuz özəl musiqi məktəbinin və "Belyayev dərnəyi"nin (1880-1890)rəhbəri olmuşdur.

N.A.Rimski-Korsakovun çoxşaxəli fəaliyyəti və qazandıqları nailiyyətlər Rus və Qərbi Avropa musiqisinin inkişafına ciddi təsir göstərmişdir. Onun əsərləri yalnız Rusiyada deyil, dünyanın müxtəlif ölkələrində səslənərək müəllifə və Rus musiqi mədəniyyətinə böyük şöhrət qazandırmışdır. Mixayıl Qlinkanın ənənələrini davam etdirən bəstəkar rus mədəniyyətinin tərəqqisi uğrunda çalışaraq, XIX əsrin sonu - XX əsrin əvvələrində rus musiqisinin səlnaməsini yaradan sənətkarlar sırasında mühüm yer tutmuşdur.

N.Rimski-Korsakovun yaradıcılığı bir çox bəstəkarlara örnək və ilham mənbəyi olmusdur. Hazırda Sankt-Peterburq şəhərində uşaq musiqi məkrəbi (1921) və Sankt-Peterburq Konservatoriyası (1944) N.A.Rismki-Korsakovun adını şərəflə daşıyır.

Görkəmli rus bəstəkarı N.A.Rimski-Korsakovun musiqisi əsasında (müəllif xoreoqraf M.Fokin) səhnələşdirilmiş "Şəhrizad" baleti Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində dəfələrlə tamaşaya qoyularaq, böyük rəğbət qazanmışdır.

***Ədəbiyyat***

1. Hüseynova T. "Musiqi ədəbiyyatı". Dərslik, Bakı , 1991.
2. HüseynovaT. "Musiqi ədəbiyyatı". Dərslik, Bakı , 2006.
3. Həsənova Ş. "Musiqi tarixindən mühazirələr". II hissə, Bakı, 2012.
4. "Musiqi səmimiyyət məbədi". "Ayna uşaq ensiklopediyası". Bakı, "Ayna Mətbuat Evi",2004.

**Rus dilində:**

5. "Большая советская энциклопедия". Под ред. А.М.Прохорова3-е изд. Москва,1969.
6. Кунин И. "Римский-Корсаков". ЖЗЛ, Москва, Молодая гвардия,1964.
7. Орлова Е. "Лекции по истории руской музыки". Москва, Музыка, 1977.
8. Римский-Корсаков Н. "Летопись моей музыкальной жизни". Москва, Музыка, 1982.
9. Смирнова Э. "Русская музыкальная литература". Москва, Музыка, 1969.
10. Соловцов А. "Жизнь и творчество Н.А.Римского-Корсакова". Москва, Музыка,1968.

Saytoqrafiya

www.edu.qov.az.

www.e-library

www. konservatoriy.az.

www.musiqi-dunya.az

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА Н. А. РИМСКОГО-КОРСАКОВА

***Хагвердиева Наргиз Али кызы***

***Резюме***

Выдающийся русский композитор, дирижер, педагог, музыкальный теоретик Николай Андреевич Римский-Корсаков (1844-1908) занимает особое место в мировой музыкальной культуре.

В статье проанализированы этапы и основные особенности творчества Николая Андреевича Римского-Корсакова, изучены жанры и темы к которым обращался композитор. Самобытная музыка Н.А.Римского-Корсакова заслуженно завоевала широкую любовь и признание во всем мире.

## THE MAİN CHARACHTERİSTİCS OF CREATIVEWORK DONE BY N. A. RIMSKY-KORSAKOV

***Haqverdiyeva Nargiz Alı***

***Summary***

Esteemed Russian composer, conductor, music theorist, educator Nikolai Andreivic Rimsriy-Korsakov has unique plase in world music culture.

In this article, stages and main details of creative work of N.A.Rimski-Korsakov analyzed, and topics used by composer was studied.

N.A.Rimsriy-Korsakov's special music deservedly won broad acknowledgement and love from all over the world

***Rəyçi: "Musiqi fənləri" kafedrasının baş müəllimi M.Hacıyeva,***

***GDU-nun "Musiqi fənnləri" kafedrasının 11 mart 2021- ci il tarixli kafedra iclasınv 09 saylı protokolu***

***Daxil olduğu tarix 24 aprel 2021-ci il***